**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Universiteti**

# Dünya ədəbiyyatı (ingilis dili) (5718.01) ixtisası üzrə doktorantura pilləsində İxtisas imtahanı proqramı

*Tərtib edən: filologiya elmləri doktoru,*
*professor , Qorxmaz Quliyev*

**Bakı – 2023**

**Proqramın aktuallığı** "Dünya ədəbiyyatı" fənni üzrə ixtisas imtahanına hazırlıq dissertantlarda və doktorantlarda tarixi planda dünya ədəbi prosesi haqqında sistemli biliklərin formalaşdırılması prinsiplərinin müəyyən olunması məqsədini güdür. Dünya ədəbiyyatı ilə bağlı biliklərin mənimsənilməsi prosesində bəşəriyyətin keçdiyi mədəni mərhələlərin özünəməxsusluğunu dərk edə bilmək, mühüm ədəbi-bədii hadisələri səciyyələndirmək, ədəbiyyatşünaslıq sahəsində

aparılmış tədqiqatların təcrübəsindən çıxış edərək mətnləri təhlil etmək bacarığı aşılanır. Dünya ədəbiyyatının mühüm anlayışlarına və müvafiq yaradıcılıq metoduna aid elmi məlumatı və bilikləri mənimsəmələri, peşəkar fəaliyyət növlərini həyata keçirmələri üçün zəruri olan tarixi-ədəbi və nəzəri-metodoloji məsələləri haqqında biliklərin müəyyənləşdirilməsini nəzərdə tutur.

**Proqramın konsepsiyası** elmi tədqiqatların və ali təhsilli kadr hazırlığının dinamik dəyişkənliyi şəraitində elmi-tədqiqat, təhsil və mədəniyyət sahələrində innovativ fəaliyyətə qabil olan mütəxəssis hazırlığı tələbinə əsaslanıb və müvafiq ixtisas üzrə peşəkar elmi və pedaqoji fəaliyyət üçün zəruri olan aşağıdakı **kompetensiyaların** formalaşmasına, bilik və bacarıqların aşılanmasına yönəlib:

- “dünya mədəniyyəti” və “dünya ədəbiyyatı” anlayışlarını tarixi və müasir mənada mənimsəmək;
- bədii istiqamətlər və janr sistemləri çərçivəsində sabit və keçid mərhələlərini birbirindən fərqləndirmək;
- araşdırılan mətnlərə ədəbiyyatşünaslığın elmi metodllarını yaradıcı şəkildə tətbiq etməyi bacarmaq;
- tarixi planda dünya ədəbiyyatının əsas elmi məktəblər və onların aparıcı nümayəndələri haqqında bilgilərə yiyələnmək.

***Homer eposu.*** Antik yunan mifologiyası Homerin "İliada" və "Odisseya" eposlarının əsası kimi. Troya müharibəsi. "İliada" eposu Troya müharibəsinin bir epizodu kimi: Aqamemnon və Axill arasında ixtilafın səbəbləri. Əsərdə allahların və insanların müstəvilərinin kəsişməsi, insanların allahlar tərəfindən idarə olunması mövzusu. "İliada"da insanpərvərlik motivi: Axill və Priam. "Odisseya" əsərində insan-allahlar münasibətlərinin yeni konsepsiyası; fatalizmin dəf olunması ideyasının təntənəsi. "Odisseya" eposunda möcüzəli nağıllara xas olan elementlər. Əsərdə qadın sədaqəti mövzusu. Ədəbiyyatda "Homer məsələsi"nin meydana gəlməsi səbəbləri.

***Lirik poeziya.*** Eramızdan əvvəl 3-cü əsrdə "lirika" anlayışının meydana gəlməsi və onun mənası. Qədim yunan ədəbiyyatında lirikanın növləri. Yamb və elegiya deklamasiya janrları kimi. Tirteyin və Arxiloxun yaradıcılığı. Alkey və Sapfo klassik melikanın yaradıcıları kimi. Sapfonun əsərlərində insan ehtirasının təcəssümü xüsusiyyətləri. Qədim yunan lirikasında Anakreontun yaradıcılığının yeri. Aristokratiyanın ideologiyasının Pindarın yaradıcılığında inikas xüsusiyyətləri. Simonid və Vakxilid xor lirikasının baniləri kimi.

***Antik faciə.*** Faciənin meydana gəlməsi və teatr tamaşalarının təşkil olunmasının səbəbləri. Aristotel faciənin mənşəyi haqqında: primitiv difiramb janrının faciəyə çevrilməsi. Dionis kultu və faciə "keçi mahnısı" kimi. Qədim yunan faciəsinin strukturu – faciədə xorun rolu. Fərdi başlanğıcın əhəmiyyət kəsb etməsi ilə bağlı aktyorun meydana gəlməsi. İlk faciə müəllifləri. Esxil qədim yunan faciəsinin ilk klassik nümayəndəsi kimi. "Farslar" faciəsində gerçəkliyin və mifologiyanın elementlərinin birləşməsinin səbəbləri. "Yeddi nəfər Fivə qarşı" faciəsində ideal hökmdar obrazı. Esxilin "Oresteya" trilogiyası: Aqamemnon və Klitemestra obrazları. İntiqam ilahələri Erinnilərin Klitemestranı dəstəkləmələri səbəbləri. "Zəncirlənmiş Prometey" əsərinin baş qəhrəmanı ümumbəşəri ideallarm daşıyıcısı kimi. Sofoklun yaradıcılığı yunan faciəsində yeni mərhələnin başlanğıcı kimi. Sofoklun əsərlərində allahların iradəsi insanların dünyagörüş mövqeyinin üzvi tərkib hissəsi kimi. "Antiqona" faciəsində ilahi və bəşəri qanunlar arasında ziddiyyət və onun aradan qaldırılması haqqında. "Çar Edip" faciəsində fatalizmin dəf olunması cəhdləri. Faciənin süjetinin XX əsrdə freydizmin əmələ gəlməsində rolu ("Edip kompleksi"). Qədim yunan faciəsində Evripid mərhələsi. "İppolit" və "Medeya" əsərlərində insan psixologiyasının təcəssümü xüsusiyyətləri.

***Antik komediya***. Aristotel komediyanın mənşəi və anlayışın etimologiyası haqqında. İlk komediya müəllifləri haqqında məlumat. Komediyada xorun fəaliyyətinin əhəmiyyəti. Antik komediyanın strukturu. Komediya tamaşalarının ictimai həyatda rolu. Aristofan antik komediyanın banisi kimi. Aristofanın "Atlılar" komediyasında demokratiyanın tənqidi və bunun səbəbləri. "Buludlar" komediyasında dramaturqun fəlsəfəyə münasibəti. Sokrat obrazına mənfi münasibətin səbəbləri. "Qurbağalar" pyesində Esxil və Evripid obrazları. Onların mübahisəsi Aristofanın dramaturgiya konsepsiyasının əsas ideyasının təcəssümü kimi.

***Roma ədəbiyyatı***. Roma ədəbiyyatının təşəkkülündə antik yunan mədəniyyətinin və ədəbiyyatının rolu. Vətəndaş müharibələri dövründə ədəbiyyat. Siseronun yaradıcılığı, latın dilinin zəngin ədəbi-bədii dilə çevrilməsində Siseronun rolu. Tit Lukresinin "Şeylərin təbiəti haqqında" poemasında Epikur təliminin bədii ifadəsinin xüsusiyyətləri. İmperiya dövrünün ədəbiyyatı. Vergilinin "Bukolik" və "Ekloqlar" əsərləri Roma ədəbiyyatında yeni meyllərin başlanğıcı və "Eneida" əsəri milli epos nümunəsi kimi. Horasinin və Katullun yaradıcılıqları. Roma ədəbiyyatında satira janrının təşəkkülü və inkişafı xüsusiyyətləri.

***Orta əsrlər qəhrəmanlıq eposu***. Orta əsrlər qəhrəmanlıq eposu epik arxaikadan epik klassikaya keçidin səciyyəvi nümunəsi kimi. Feodal müharibələrinin qəhrəmanlıq eposunda təcəssümü. "Rolan haqqında nəğmə" fransız qəhrəmanlıq eposunun nümunəsi kimi. Tarixi həqiqət və onun eposda təhrif olunmasının səbəbləri. "Nibelunqlar haqqında nəğmə" alman qəhrəmanlıq eposunun nümunəsi kimi. Eposda möcüzəli nağıl elementlərindən istifadənin səbəbləri. "Nibelunqlar haqqında nəğmə"də Etsel (Atilla) obrazı. Türk əsilli hökmdara müsbət münasibətin səbəbləri. İspan qəhrəmanlıq eposu "Sid haqqında nəğmə". Əsərdə "sərkərdə" (pəhləvan) ilə hökmdarın ixtilafının səbəbləri. Eposda islam dünyasına mənfi münasibətin səbəbləri.

***Kurtuaz lirikası***. Qərbi Avropa kurtuaz lirikası və Şərq lirikası arasında tipoloji paralellərin meydana gəlməsinin səbəbləri. "Kurtuaz" sifətinin sosial-əxlaqi kökləri. Kurtuaz lirikası məhəbbətə yeni münasibətin ədəbi-bədii ifadəsi kimi. Provans lirikasının özünəməxsusluğu. Provans mədəniyyətinin və ədəbiyyatının Avropa mədəniyyətinin köklü islahatında rolu. Trubadurlar poeziyasının özünəməxsusluğu və onda Yaxın şərq poeziyasına xas olan cəhətlərin meydana gəlməsinin səbəbləri. Trubadurlar poeziyasının xalq yaradıcılığı ilə yaxınlığı. Trubadurlar poeziyası Avropa intibahının mühüm mənbələrindən biri kimi.

***İtalyan İntibahöncəsi ədəbiyyat. Dante***. "Yeni şirin üslub" (dolçe stil nuovo) italyan poeziyasında yeni meyllərin inikası kimi. Gözəl Xanımın vəsfinin poeziyanın aparıcı mövzusuna çevrilməsinin səbəbləri. Yeni poetik janrlar: kansona, ballada, sonet. Dante italyan və Avropa İntibahöncəsi ədəəbiyyatın ən görkəmli nümayəndəsi kimi. "İlahi komediya"nın janrı, kompozisiyası. Poemanın süjet xəttinin xüsusiyyətləri.

***İntibah dövrünün ədəbiyyatı***. İntibah bəşəriyyətin tarixində dövr kimi. İntibahın meydana gəlməsinin səbəbləri: feodalizmdən kapitalizmə keçid, kənd mədəniyyətinin şəhər mədəniyyəti ilə əvəz olunması, iri dövlətlərin və millətlərin formalaşması, milli dillərin və mədəniyyətlərin yaranması. Universal insan konsepsiyası. Böyük coğrafi kəşflər. Rəssamlıqda birbaşa perspektivin kəşfi; dünyanın şaquli konsepsiyasının üfüqi konsepsiya ilə əvəz olunması. Humanizm İntibah ideologiyasının fəlsəfi əsası kimi: "İnsan bütün nəsnələrin ölçüsüdür". İnsanın total azadlığı ideyasının formalaşması. Titanizm ideologiyası. İntibahın dövrləşməsi: erkən İntibah, yüksək İntibah, gec İntibah və onların spesifik cəhətləri.

***Petrarka.*** "Nəğmələr kitabı" İntibah lirikasının zirvəsi kimi. Əsərdə məhəbbət mövzusu. Petrarka italyan ədəbi dilinin yaradıcılarından biri kimi. Bəşəri hislərin fərdiləşdirilməsi cəhdi. Petrarka klassik sonet janrının banisi kimi. "Nəğmələr kitabı"nın janr strukturu.

***Bokkaçço*** Avropa ədəbiyyatında psixologizmin banisi kimi. Yazıçının novella janrının yaradılmasında və italyan ədəbi dilinin inkişafında xidmətləri. "Dekameron" əsərində müxtəlif mövzularda yazılmış novelləri çərçivəyə almaqla roman janrının ideyasının hazırlanması.

***Erazm*** Şimali Avropa İntibahının ən görkəmli nümayəndəsi kimi. Erazmın xristianlığa münasibəti."Axmaqlığın vəsfi" əsərinin ideya məzmunu və kompozisiyası. Əsərdə gülüşün özünəməxsusluğu İntibah humanizminin təcəsümü kimi.

***Rable.*** "Qarqantüa və Pantaqrüel" əsəri və xalq ədəbiyyatı, Rablenin fransız dilinin yaradılmasında və zənginləşdirilməsində xidmətləri. Əsərdə qrotesk problemi. M. Baxtin Rablenin yaradıcılığında karnaval konsepsiyası haqqında.

***Şekspir.*** Dramaturqun yaradıcılığının dövrləşməsi kontekstində janr sisteminin dəyişiməsi. Şekspirin bədii dünyası: sonetləri, tarixi xronikaları, komediyaları və yüksək faciələri. "Hamlet"də və "Kral Lir"də özgələşmə problemi. Ədəbiyyatşünaslıqda Şekspir məsələsi.

***Servantes.*** "Don Kixot" romanı Orta əsrlər cəngavər romanına parodiya kimi. Don Kixot obrazının ziddiyyətlərinin səbəbləri. Don Kixot və cəmiyyət. Don Kixot və Sanço Pansa. Əsərdə məhəbbət mövzusu.

***Barokko.*** Qərb incəsənətində və ədəbiyyatında barokkonun meydana gəlməsinin ictimaiideoloji səbəbləri. Barokko incəsənətində dünya və insan konsepsiyası. Barokkoda ədəbi janrlar sistemi. Barokko üslubu. XX əsr Latın Amerikası ədəbiyyatında barokko fenomeni.

***Klassisim.*** Klassisizmin meydana gəlməsinin ictimai səbəbləri – klassizm və mütləq monarxiya. Klassisizm incəsənətin bütün sahələrini ehtiva edən bədii istiqamət kimi. Klassisizmin estetikası: həqiqətin və gözəlliyin dərki incəsənətin əsas məqədi kimi. Klassist dramda zaman, məkan və hərəkət vəhdəti. Janrlar nəzəriyyəsi. Klassist üslubun xüsusiyyətləri.

***Maarifçilik.*** Qərbi Avropa ölkələrində maarifçilik ideologiyasının meydana gəlməsi səbəbləri: ümumi və fərqli cəhətlər. Maarifçilərin mövcud gerçəkliyə tənqidi münasibəti. Maarifçilik ideologiyasının ədəbi-bədii fikirdə inikas xüsusiyyətləri: maarifçi klassisizm və maarifçi realizm. Yetkin maarifçiliyin xüsusiyyətləri.

***Defo.*** Yeni dövr Avropa romanının – sosial-psixoloji və kriminal janrların banisi kimi. Defo realist nəsrinin xüsusiyyətləri - sənəd qismində məktublardan və gündəliklərdən istifadə. Defonun qəhrəmanları burjua ictimai münaibətlərinin təcəssümü kimi. "Robinzon Kruzo" romanı bəşər nəslinin ibtidai icma dövründən sivilizasiya dövrünə qədər keçdiyi yolun təcəssümü kimi.

***Svift.*** "Qulliverin səyahətləri" əsərində Sviftin maarifçilik illüziyalarından xilas olması və bunun bədii təcəsüm xüsuiyyətləri. Romanda pamflet janrına xas olan vasitələrdən istifadənin spesifikası. Qrotesk "Qulliverin səyahətləri" əsərində əsas bədii vasitə kimi.

***Volter.*** Avropa və fransız maarifçiliyinin aparıcı nümayəndələrindən biri kimi. Volterin dramaturgiyasında klassisist prinsiplərin tətbiqinin özünəməxsusluğu. Onun poetik əsərlərində maarifçilik ideyalarını təcəssümü. Yazıçının fəlsəfi povestlərində ideyanın prioritetinin səbəbləri. Volterin nəsrində tarixilik prinsipinin ifadə xüsusiyyətləri.

***Didro.*** Didronun Ensiklopediyasının maarifçilik ideyalarının təbliğində və təşviqində rolu. Didro incəsənətin nəzəriyyəçisi kimi. Didronun teatr konsepsiyası. Didronun "Rahibə" romanında psixologizmin xüsuiyyətləri. "Ramonun qardaşı oğlu" povestində maarifçinin və kübar cəmiyyətinin ideyalarının mübarizəsinin bədii təcəsümü.

***Sentimentalizm***. Sentimentalizmdə maarifçi İdrak kultunun Hiss kultu ilə əvəz olunmasının səbəbləri. Sentimentalizmin insanın daxili aləminə, qəlbinə nüfuz etmə vasitələri. Sentimentalizmin insan psixologiyasının qanunauyğunluqlarını üzə çıxarmaq sahəsində uğurları. Təbiətin Sivilizasiyadan üstün tutulması. Təbiət təsvirləri və mənzərələr insanın daxili aləminə nüfuz olunmasının əsas bədii vasitəsi kimi. Sentimentalist lirizmin xüsuiyyətləri.

***Stern.*** "Sentimental səyahət" Avropa və ingilis sentimentalizminin ədəbi-bədii nümunəsi kimi. Romanda gerçəkliyin obyektiv şəkildə təsvirindən imtina və personajın baxışının aparıcı rolu. "Tristram Şendi" romanında sentimentallıq və onun istehza obyektinə çevrilməsi. Romanın

kompozisiyasının düzümdən məhrum olunmasının səbəbləri. Əsərdə daxili monoloqdan istifadənin xüsusiyyətləri: Stern Coysun sələfi kimi.

***Russo.*** "İctimai müqavilə" Russonun ən mühüm siyasi əsəri kimi. İdeal dövlət konsepsiyası. "İnsan azad doğulur, amma o hər yerdə buxovdadır" cümləsi dünyanı inqilabi vasitələrlə dəyişdirməyə çağırı kimi. "Yuliya yaxud Yeni Eloiza" romanı fransız sentimentalizminin zirvəsi kimi. Plebeyin baş qəhrəman qismində təqdim olunmasının səbəbləri. Əsərdə insanın təbii hislərinin vəsfi. Romanda məhəbbət probleminin təcəssümü. "Emil yaxud Tərbiyə haqqında" roman traktatında yeni insanın tərbiyə olunmasının yolları haqqında.

***Lessinq.*** Bədii yaradıcılığı. Didro ilə yanaşı maarifçi realizmin ən görkəmli nəzəriyyəçisi kimi. "Laokoon" əsərində həqiqətin və onun bədii ifadəsinin incəsənətin əsas qanunu qismində bəyan olunmasının səbəbləri. Lessinq zaman və məkan incəsənət növləri arasında dəqiq sərhədlərin müəyyən olunmasının əhəmiyyəti haqqında. "Hamburq dramaturgiyası" traktatında alman milli dramaturgiyası konsepsiyası.

***Şiller.*** Göte ilə yanaşı klassik alman ədəbiyyatının banilərindən biri kimi. "Qaçaqlar" pyesində "Tufan və həmlə" estetikasının inikas xüsusiyyətləri. Böyük ehtiraslarla yaşayan insanı ideal "kiçik dünya"ya qapatmağın qeyri-mümkünlüyü ideyası. Şiller yaradıcılığının Veymar dövrü: Göte ilə yaradıcı əməkdaşlığın təsiri. Şekspirin Şiller yaradıcılığına təsiri xüsuiyyətləri.

***Göte.*** "Tufan və həmlə" dövrünün yaradıcılığı. "Gənc Verterin əzabları" lirik romanında yeni bədii insan konsepsiyası. Götenin "Qərb-Şərq divanı" Yaxın Şərq və Qərbi Avropa lirik ənənələrinin sintetik vəhdətinə nail olmağa cəhd kimi. Götenin dünya ədəbiyyatı konsepsiyası. Göte yaradıcılığında Veymar dövrü: Göte və Şiller. "Faust" dünya ədəbiyyatının zirvəələrindən biri kimi.

***Romantizm***. XVIII sonu – XIX əsrin birinci yarısında qərb incəsənətində istiqamət, yaradıcılıq metodu üslub kimi. "Romantizm" anlayışının mənşəyi. Romantizmin estetikası: əbədilik, sonsuzluq, gözəllik, kamillik ideal kimi. Romantizmin gerçəkliyə və təxəyyülə münasibəti. Romantizmin ikili dünya konsepsiyası. Romantizm ədəbi istiqamət və incəsənətdə üslub kimi. Romantizmin inkişaf mərhələləri.Yena romantizmi.

***Hofman*** yaradıcılığında söz sənəti ilə musiq motivlərindən istifadənin xüsusiyyəti: Kreysler obrazı. Hofmanın novellalarında komikliyin müxtəlif təzahür formalarından – yumordan, istehzadan, sarkazmdan istifadə. Komikliyin qrotesklə vəhdəti Hofman romantizminin aparıcı xüsusiyyəti kimi. Hofmanın romantik nağılları.

***Heyne***. Heyne alman romantik poeziyasının ən görkəmli nümayəndəsi kimi. "Nəğmələr kitabı"nda romantizm üçün ənənəvi olan məhəbbət və təbiət mövzuları subyektivliyin və obyektivliyin vəhdəti kimi. "Lirik intermesso" lirik roman janrının ilk nümunəsi kimi. Heynenin "Yol mənzərələri" romantik təsvirin xüsusiyyətləri. "Almaniya. Qış nağılı" poeması romantizmdən realizmə keçid kimi.

***"Göl məktəbi"***. Leykistlərin XVIII əsr poetik dilinin şərtiliklərindən imtina etmələrinin səbəbləri. Vordsvortun şəhər sivilizasiyasına mənfi münasibəti. Kolricin yaradıcılığında adiliyin və qeyri-adiliyinin təsviri xüsusiyyətləri. Şairin "Qoca dənizçinin rəvayəti" balladası "Göl məktəbi" estetikasının səciyyəvi nümunəsi kimi. Sautinin siyasi konservatizminin poeziyasına təsiri

***Bayron.*** Bayron yeni ədəbi janrların – lirik-epik poemanın, fəlsəfi dram-misteriyanın, nəzmlə yazılmış romanın və s. yaradıcısı kimi. Bayronun estetik görüşləri. Şairin yaradıcılığının birinci

dövrü: "Çayld Harold" poemasında "bayronizm" ideyasının təcəssümü. "Şərq poemaları"nda gerçəkliyin durumuna qarşı etiraz motivləri və üsyankar insan konsepsiyası. "Manfred" əsərində insan azadlığı mövzusu. "Don Juan" dünya ədəbiyyatında ilk "mənzum roman" nümunəsi kimi.

***Hüqo.*** Hüqo fransız romantizminin ən görkəmli nümayəndəsi kimi. Romantizm estetikasının formalaşmasında və inkişafında "Kromvel"ə ön söz"ün rolu. Hüqonun klassisizmə qarşı mübarizəsi və romantizmin nəzəriyyəsinin təşəkkülü. Hüqo dram sənəti haqqında. "Paris Ana Məryəm kilsəsi" əsərində Orta əsrlərə münasibət. "Səfillər" romanı sosial-romantik romanın nümunəsi kimi.

***Realizm.*** İctimai şəraitin insan xarakterinə təsiri probleminə realizmin münasibəti. Tipik xarakterlərin tipik şəraitdə formalaşması qanunu. Realist tarixilik, realist psixologizm, realist xəlqilik realizmin aparıcı prinsipləri kimi. "Realizm" termininin meydana gəlməsi tarixi. Realizmin estetikası: realist sənətkarın hadisəyə münasibətinin onun meydana gəlməsi səbəblərini açıqlamaq cəhdi vasitəsilə ifadə olunması. Realizm dünyagörüşünün pozitivizmə münasibəti.

***Stendal.*** Stendalın realist pixologizmin formalaşmasında və inkişafında rolu. Psixologizmə meylin yazıçının üslubuna təsiri. "Qırmızı və qara" romanında mərkəzəqaçma prinsipindən istifadənin səbəbləri: romanın adı ziddiyyətlərin vəhdətinin ifadəsi kimi.

***Balzak.*** XIX əsrin birinci yarısında realizmin ən görkəmli nümayəndəsi kimi. Dantenin "İlahi Komediya"sının paraleli olan Balzakın "Bəşəri komediya"sının strukturu haqqında.
Sənətkarın özünə müasir dövrün elmi yeniliklərini Svedenborqun mistik görüşləri ilə birləşdirmək cəhdi. Balzakın bədii dünyasının sərhədləri: "Bəşəri Komediya"da məkan və zaman problemi.

***Dikkens.*** Urbanizm Dikkensin ədəbi-bədii yaradıcılığının prinsipi kimi. "Pikvik klubunun ölümdən sonrakı qeydləri" əsəri XIX əsr komik epopeyası kimi. "Dombi və oğlu" əsərində obrazlar sistemi. Dikkens psixologizminin xüsusiyyətləri. Dikkensin əsərlərində müəllifin bioqrafiyasının təcəssümü. Yazıçının romanlarında detektivin elementləri.

***Tekkerey.*** XIX əsr ingilis ədəbiyyatında realist satira və Tekkereyin yaradıcılığı. "Barri Lindonun karyerası" romanında aristokratiyanın cırlaşması prosesinin təsviri. "Şöhrətpərəstlik yarmarkası" romanında satiranın xüsusiyyətləri. Romanda insan-gəlincik bədii təsvir üsulundan istifadənin xüsusiyyətləri.

***Naturalizm.*** Avropa incəsənətində naturalizmin meydana gəlməsinin siyasi-ideoloji səbəbləri. Pozitivizm naturalizmin fəlsəfi əsası kimi. "Obyektiv" və "şəxssiz" incəsənət nəzəriyyəsi. Naturalistlərin romantizmin xəyalpərvərliyindən imtinalarının səbəbi. Naturalistlərin Balzakın yaradıcılığına münasibətləri. Naturalizmdə yasaq mövzulardan imtina. Naturalizmdə gerçəkliyə və həyat həqiqətlərinə münasibət. Naturalizm və realizm. Naturalizm və impressionizm.

***Zola.*** Zolanın eksperimental roman nəzəriyyəsi: ədəbi yaradıcılıq müşahidənin və eksperimentin üzvi vəhdəti kimi. Naturalizmdə ayrı-ayrı fərdlərin cəmiyyətin üzvü qismində elmi dərki problemi. "Ruqon-Makkarlar" romanlar silsiləsi və irsilik problemi. Zolanın yaradıcılığında ətraf mühitin insana təsiri xüsusiyyətləri.

***Simvolizm.*** İkili dünya idealist konsepsiyası simvolizmin fəlsəfi əsası kimi. Simvolizdə gerçəkliyin mahiyyətinin dərk olunmasında intuisiyanın rolu. Şopenhauer və simvolizm. Simvolizmin pozitivizmə münasibəti. Simvolistlərin Bodlerin yaradıcılığına münasibəti. Simvolizmin üsyankarlıq ruhunun özünəməxsusluğu. Simvolizm və dekadans.

***Modernizm***. Modernizm XX əsrin əvvəllərində formalaşmış, realizm və romantizm yaradıcılıq metodlarına qarşı duran bədii yaradıcılığın müxtəlif estetik istiqamətlərin bir araya gətirilməsindən yaranmış modeli kimi. Modernizmin incəsənətin klassik formalarını dağıtmaq cəhdlərinin səbəbləri. Fərdin cəmiyyətdə total özgələşməsi və modernizm. Modernizmin fəlsəfipsixoloji əsası və mif yaradıcılığına münaibəti. Yaradıcılığın "oyun" konsepsiyası.

***Dadaizm***. Dadaizm Avropa incəsənətində erkən avanqardizmin nümunəsi kimi. Dadaizmin fəlsəfi əsası – irrasionalizm, nihilizm, antiestetizm, absurd. Dadaizmin poetikası – epataj, sözlərin, predmetlərin, xətlərin təsadüfi birləşmələri. Birinci Dünya müharibəsi və dadaizmin ona münasibəti.

***Ekspressionizm***. Ekspressionistlər həyatın mənfi tərəflərinə qarşı: ekspressionizm və özgələşmə. Ekspressionistlərin gerçəkliyin mövcud formalarına qarşı mübarizəsi: incəsənətin gerçəkliyə verdiyi yeni şərh onun dəyişdirilməsi yolunda ilk mühüm addım kimi. Ekspressionist sənətkarların istifadə etdikləri əsas bədii vasitələr və üsullar.

***Futurizm.*** Urbanizmə, onun gələcəyinə optimist münasibət. Futurizmin maşınları vəsf etməsi antihumanizmin özünəməxsus təzahür forması kimi. Kitabxanalardan, muzeylərdən, mədəni ənənələrdən imtina ideyası. Futurizmin antirasionallığının, antipsixologizminin, antiestetikliyinin, antiəxlaqlılığının səbəbləri. Futurizmin faşist ideolgiyasının hazırlanmasında rolu. Rus futurizminin özünəməxsus cəhətləri.

***Sürrealizm.*** XX əsrin birinci yarısının modernist incəsənətin və ədəbiyyatın səciyyəvi hadisəsi kimi. Sürrealizm və poeziya. Sürrealizm və rəssamlıq: gerçəkliyin elementlərinin parçalanması, müxtəlif zaman və məkanlarda cərəyan edən hadisələri bir araya gətirmək cəhdi. Sürrealizmin incəsənətin "ilkin elementi"ni üzə çıxarmaq cəhdləri. ontaj prinsipinin müxtəlif incəsənət sahələrinə tətbiqi. Sürrealizmdə süjetdən və xarakterdən imtinanın səbəbləri. Freydizm və sürrealizm.

***Ekzistensializm***. Birinci Dünya müharibəsindən sonra ekzistensializmin meydana gəlmə səbəbləri. Ekzistensialist fəlsəfənin əsası: insanın mövcudluğu yeganə dəyər kimi. İnsanın mövcudluğu ilə bağlı doğulma, ölüm, qayğı, qorxu anlayışlarının ekzistensializmin aparıcı anlayışlarına çevrilməsinin səbəbləri. Ekzistensializmdə insan azadlığı problemi və bunun bədii ədəbiyyatda inikas xüsusiyyətləri. "Sərhəd durumları"nda insanın cəmiyyətin ona qəbul etdirdiyi özgələşmədən azad olması.

***Absurd teatr.*** Absurd teatrın fəlsəfi əsası: dünya və onun bütün elementləri–insanın mövcudluğunun, dilinin, düşüncə tərzinin, insanlararası münasibətlərin xarakteri universal absurdun təzahür formaları kimi. Absurd teatrın dram sənətində gətirdiyi yeniliklər: qrotesk və nonsens. Absurd teatrda faciəviliyin təcəssüm xüsusiyyətləri. Absurd teatrın nümunələrində konkret zamandan və məkandan imtinanın səbəbləri.

***Prust.*** "İtirilmiş zamanın axtarışında" romanlar silsiləsində real aləmin fərdin subyektiv təəssüratları əvəz olunmasının səbəbləri. Ənənəvi süjetin insan xarakterinin yoxa çıxması. Prustun tipiklikdən imtinası və fərdiliyi ön plana çəkməsi. Xırda elementlərə və cüzi dəyişikliklərə diqqət Prust poetikasının aparıcı xüsusiyyəti kimi. Prustun üslubu.

***Coys***. "Uliss" romanının iki qatı: birincisi, Dublinin üç sakini, ilk növbədə Leopold Blumun həyatının bir günü təsvir olunan son dərəcə konkret müasir qat; ikincisi, Homerin "Odisseya" əsərinin baş qəhrəmanının Troya müharibəsindən iyirmi il ərzində doğma yurduna qayıtması.

“Uliss” əsərində “şüur axını”nın spesifikası.

***Kafka***. “Proses” romanında total və mücərrəd günah və onun təmizlənməsinin qeyrimümkünlüyü mövzusu. Kafkanın öz qəhrəmanlarını fərdiləşdirməkdən imtinasının səbəbləri. Kafkanın “Qəsr” romanı absurd dünyanın modeli kimi. Yazıçının əsərlərində xarakter problemi. Paradoksallıq Kafka poetikasının əsas bədii təcəssüm üsulu kimi. Kafkanın əsərlərində absurdizmin müxtəlif ifadə vasitələri. Yazıçının əsərlərində mif yaradıcılığı.

***Postmodernizm.*** XX əsrdən XXI əsrə keçid dövründə postmodernizmin mədəni paradiqmaya çevrilməsinin səbəbləri. Postmodernizmin nəzəriyyəçilərinin “əsər” anlayışından imtinasının və onun “mətn”lə əvəz olunmasının səbəbləri. İntermətnlik bir mətnin saysız-hesabsız digər mətnlərlə dialoqu kimi. Postmodernizmin modernizmə və klassik incəsənətə münasibəti. Total posmodernist istehzanın xüsusiyyətləri. Postmodernizmin ədəbiyyat tarixinə münasibəti. Jerar Jenettin konsepsiyası.

***Eko.*** Ekonun bədii yaradıcılığında postmodernist bədii ədəbiyyatın səciyyəvi cəhətləri. “Qızıl gülün adı” əsəri Orta əsrlər tarixinin bilicisi və semioloqun bədii təfəkkürünün məhsulu kimi. Əsərin iki planı: birincisi ekzoterik planda hadisələrin detektiv roman janrının qanunları əsasında təsviri. İkinci ezoterik plan vasitəsilə dünya kitabxanasının informasiyasının əsərə cəlb olunması. Romanda hər iki planın açıq şəkildə oxucunun ixtiyarına verilməsi.

**Ədəbiyyat**


*Azərbaycan dilində:*

1. Alman Ədəbiyyatı Antalogiyası. İki clilddə.Bakı,”Avrasiya press”2006.
2. Amerika Ədəbiyyatı Antalogiyası. Bakı,”Avrasiya press”2008
3. Fransız Ədəbiyyatı Antalogiyası.İki cilddə.Bakı, ,”Avrasiya press”2006.
4. İngilis Ədəbiyyatı Antalogiyası. . İki cilddə.Bakı,”Avrasiya press” 2008
5. Şıxlı İ XİX əsr xarici ədəbiyyat tarixi. Bakı, 1964
6. Şıxlı İ.XX əsr xarici ədəbiyyatı tarixi. Bakı.1974.

Rus dilində :

7.Аверинцев С.С. Поэтика ранневизантийской литературы. – М., 1997.

8.Аверинцев С.С. Судьбы европейской культурной традиции в эпоху перехода от античности к Средневековью // Из истории культуры Средних веков и Возрождения. – М., 1976.

9.Аверинцев С.С. Риторика и истоки европейской литературной традиции. – М., 1996.

10. Зарубежная литература ХХ века: Учебник. / Под ред. Л.Г.Андреева. М., 1996; 2-е изд.: М., 2000.
11. Зарубежная литература Х1Х века. М., 2002.
12. Зарубежная литература ХХ века / Под ред. В.М. Толмачева. М., 2003.

Зарубежная литература ХХ века / Под общ. ред. Н.П. Михальской. М., 2003

13. Зарубежная литература ХХ века. М., 1999.
14. История всемирной литературы: В 9 т. М., 1983-1994.

15. История зарубежной литературы / Под ред. Л.Г.Андреева, Р.М.Самарина. Ч.1.
М., 1969. Ч.2. М., 1970.
16. История зарубежной литературы XX века. 1917-1945 / Под ред.
В.Н.Богославского, З.Н.Гражданской. М., 1984.
17. История зарубежной литературы XX века / Под ред. А.Г. Михайловой и Я.Н. Засурского. М, 2003.
18. История зарубежной литературы: Средние века. Возрождение. М., 1987.
19. Тронский И.М. История античной литературы. М., 1988.